**LEYLA ABASOVA**
**tarix üzrə fəlsəfə doktoru**
**Bakı Dövlət Universitetinin**
**Zahid Xəlilov**
**sg.leyla @gmail.com**

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ KİTAB NƏŞRİ: TƏKLİF VƏ TƏLƏBAT PROBLEMİ

**Xülasə**

Məqalədə Azərbaycanda müstəqillik illərində nəşriyyat sisteminə nəzər salınmış, həmçinin burada 1980-ci illərin sonlarında ölkədə nəşriyyat sistemindəki durum arasında müqayisəli təhlillər də nəzərə çarpır. Əsasən məqalədə kitab nəşrində tələbat və təklif probleminin uyğunlaşdırılması məsələsi təhlilə cəlb olunmuş, problem şərh edilmiş, müəyyən nəticələr əldə edilmişdir.

Müəllif kitab nəşrində təklif və tələbat problemi ən mürəkkəb, lakin onların uyğunlaşdırılması zəruri olan məsələ kimi dəyərləndirir. Müəllif təklif edir ki, bunun üçün kitabçılıq işinin bütüm xüsusiyyətləri nəzərə alınmalı, nəşriyyatlar, poliqrafiya müəssisələri və kitabın təbliği və yayılması ilə məşğul olan mütəxəssislər əlaqəli şəkildə fəaliyyət göstərməlidirlər.

Məqalədə həmçinin qeyd olunur ki, müasir dövrdə kitab nəşrinin vəziyyəti, inkilşaf xüsusiyyətlərinin öyrənilməsi, təklif və tələbat probleminin tədqiqi bir sıra maraqlı, ümumləşdirici fikirlər söyləməyə, təklif və tövsiyələr irəli sürməyə imkan verir.

Müəllif qeyd edir ki, öyrəndiyimiz müasir mərhələdə kitab nəşri sahəsində müəyyən müvəffəqiyyətlər: kitabın ad və tiraj artımı, bədii və poliqrafik icrası, kitabın sahə quruluşu və tipologiyası və s. üzrə qazanılmışdır. Kitabçılıq işində bu komponentlərin bəzilərində çox, bəzilərində isə az nailiyyətlər əldə olunmuşdur.

***Açar sözlər:*** kitab, nəşr, təklif, tələbat, oxucu, redaktor, əsər, naşir, müstəqillik illəri, özəl nəşriyyat sistemi, dövlət nəşriyyatları

Kitabçılıq işi, başqa sözlə əsərin nəşrə çevrilən mövcudluq forması mürəkkəb sənətdir. Güclü informasiya axını ilə fərqlənən çağdaş dönəmdə kitaba tələbat və kitab nəşri prosesi daha da mürəkkəbləşib, habelə ziddiyyətli aspektləri mövcuddur.

Kitab əslində – əsər müəllifdən sonra, rəyçinin, redaktorların, kompüter operatorlarının: dizayner və s., (əvvəllər mürəttiblərin), korrektorların və bir çox digər kitabçılıq işi ilə məşğul olan mütəxəssislərin əlindən keçib, nəhayət nəşr formasında oxucuya, başqa sözlə tələbatçıya çatdırılır. Bu proseslərin hər biri ilə bağlı önəmli sorunlar – problemlər vardır ki, bunlar hazırda naşirləri çox düşündürür. Birinci problem yazar və əsər seçməkdir. Ümumiyyətlə, əsərin keyfiyyətini müəyyənləşdirən vahid meyar olmadığından, naşirlər çox zaman yazar axını ilə üzləşir. Hər kəs öz yazdığını dəyərli sayır və onu nəşr etməyən nəşriyyatları suçlandırır [14, 193].

Əlbəttə, Azərbaycanın müstəqillikdən əvvəlki dövründə, yəni sovet hakimiyyəti illərində naşir-müəllif münasibətlərini qeyd etdiyimiz fikir düzgün ifadə edir. Amma indi vəziyyət tamamilə dəyişmiş müəllif – naşir münasibətləri tamamilə ayrı münasibət və istiqamət almışdır. İndi müəllifin hansı mövzudan, problemdən yazmasından və onun yazdığı əsərin necə yazılmasından asılı olmayaraq, əgər müəllifin pulu varsa, əsər nəşr edilir. Belə bir şərait elmi, nəzəri və təcrübi problemdir.

Deməli, siyasətin dəyişdiyi, quruluşun dağıldığı dövrdə, böhran, geriləmə və iqtisadi çətinlik şəraitində mədəniyyət sahələrində, o cümlədən kitab nəşri sahəsində çətinliklər daha çox yaranır. Böyük bir imperiyanın dağıldığı, qanunların qüvvədən düşdüyü, yeni qanunların çətinliklə

yarandığı və işləmədiyi, durumun tez-tez dəyişdiyi indiki şəraitdə kitabın nəşrinə, təbliğinə və yayılmasına ciddi ziyan dəymişdir.

XX əsrin 90-cı illərindən başlayan kitabçılıq işindəki bu problemə, onsuzda başqa sahələrlə müqayisədə ağır vəziyyətdə olan bu vacib sahə özünü dirçəldə bilmir.

Bazar iqtisadiyyatına keçid, qiymətlərin liberallaşdırılması mədəniyyətin əsas sahələrinə, o cümlədən kitab nəşrinə ciddi mənfi göstərir. Kağızın, mətbəə xərclərinin çoxalması, poliqrafiya avadanlıqlarının, ehtiyat hissələrinin çatışmazlığı da işləri çətinləşdirir. Eyni zamanda keçid dövründə bir sıra ədəbiyyat növləri nəşrinin daha acınacaqlı hala düşəcəyi gözlənilir. Buraya elmi-texniki ədəbiyyat, orta məktəb dərslikləri, metodik vəsait, elmi nəşrlər, xüsusilə ali və texniki məktəblər üçün dərsliklər, tibb və kənd təsərrüfatı ədəbiyyatını aid etmək olar. İstehsalat-texniki ədəbiyyatın, müxtəlif təlimatların nəşri tamamilə dayana bilər. İstehsalat mədəniyyətinin, bütövlükdə isə iqtisadi mədəniyyətin mövcud normalardan çox aşağı olduğu ölkəmizdə bu növ ədəbiyyatın çap olunması çox ciddi, mənfi sonuclar verə bilər. Mədəniyyətimizin mühüm sahələrinə aid ədəbiyyat nəşri də keçid mərhələsində yaxşı durumda olmayacaq. Təsviri sənətə, musiqiyə aid kitabların, monoqrafiya və başqa kitabların nəşri tirajların azaldığına, həm də baha başa gəldiyinə, iqtisadi səmərəsinin olmadığına görə təhlükə altında qala bilər [14, 228].

Professor İ.Ö.Vəliyev çox haqlı olaraq qeyd edir ki, "Azərbaycan kitabının, müəyyən uğurlu nəşrlərinin mövcudluğunu danmasaq da, bütövlükdə aşağı səviyyədə oduğunu gizlədə bilmərik. Ölkənin ictimai-siyasi durumu ilə bağlı ictimai elmlər sahəsində hər şeyin birdən-birə dəyişməsi, elmi-məlumat və informasiyanın artması kitabçılıq işinin genişlənməsinə gətirib çıxartmışdır. Portfeldə əlyazmaların və təkrar nəşrlərin mənəvi əsgiməsi kitab buraxılışı prosesinə çox böyük mənfi təsir göstərir. Əldə olan dərsliklərin əsgiməsi, yenisinin isə hələ yazılmaması faktı daha böyük problemdir...

Uşaq ədəbiyyatı və uşaq kitabı problemi ciddi rahatsızlıq doğurur. Buraxılacaq bədii ədəbiyyatın 40-50%-ni uşaqlar üçün kitablar təşkil etməli olduğu halda, bu göstərici 10%-ə çatmır. Əslində bu faizin özü də şübhəlidir. Söhbət məktəbyaşlı uşaqlar və gənclər üçün kitablardan getmir, bağçayaşlı və ibtidai sinif öyrənciləri üçün kitablar, burada əsas götürülməlidir" [14, 222].

İstifadə olunan dərsliklərin, məktəb kitabxana fondunun durumu olduqca aşağıdır, daha dəqiq desək, ağırdır. Bir yandan texnologiya mürəkkəbliyi, o biri yandan məzmun əsgiməsi işə əngəl törədir. Əski dərsliklərin siyasi mətnlərlə həddindən çox yükləndiyindən və bunlar da hədsiz dərəcədə siyasiləşdirildiyindən, dərsliklərin yüzdən, demək olar, doxsanı dəbdən düşmüşdür, mənəvi cəhətdən köhnəlmişdir.

Digər tərəfdən indi buraxılan dərsliklər heç bir tibbi və texnoloji standarta uyğun gəlmir. Elementar sanitariya baxımından, uşaqların istifadə etdikləri dərsliklər ziyanlıdır. Bu sahədə Batı ölkələrinin təcrübəsindən istifadə etmək, nazik cildli, çəkisi yüngül, kağızın tibbi-sanitar normalara uyğun gələn dərsliklərin, dəftər-kitabların istehsalına keçmək lazımdır [14, 222].

Kitabın nəşr problemləri çoxdur. Əlbəttə, indiki şəraitdə oxucu qruplarının kitaba artan tələbatını ödəmək olduqca çətinləşib, ayrı-ayrı elm, texnika, kənd təsərrüfatı, tibb, iqtisadiyyat və s. sahələr üzrə kitab buraxılışına ehtiyac artdığı indiki şəraitdə, kitab nəşrində bu cəhət nəzərə alınır. Ayrı-ayrı kitab tipləri üzrə kitab buraxılışı da ağır vəziyyətdədir. Kitab nəşrində bədii və texniki tərtibat məsələlərinin yerinə yetirilməsində laqeydlik özünü göstərir. Dünya standartlarına uyğun kitabların nəşri sahəsində uğurlarımız yox dərəcəsindədir. Bütün bu deyilənlərin kitab nəşrində təzahür etməsi kitaba oxucu tələbatının ödənilməsinə gətirib çıxarır. Digər tərəfdən nəşriyyatların çap etdiyi kitablar, başqa sözlə təklif tələbata qətiyyən uyğun gəlmir. Bu problem ümumiyyətlə, kitabçılıq işinin bütün aspektlərinin yenidən qurulmasını, təşkil edilməsini irəli sürür. Bunu da etiraf etməliyik ki, ölkəmizin bazar iqtisadiyyatı yolu ilə irəliləməsi, müstəqillik şəraiti kitab nəşrini xeyli dərəcədə aktuallaşdırmışdır. İndi ölkəmizdə dövlət və geniş fəaliyyət göstərmək istəyən özəl nəşriyyatlar mövcuddur. Bu nəşriyyatların, çap məhsulunu öyrənmək, onların məzmun, sahə, tipologiya və s. baxımdan oxucu qruplarının tələbatlarına nə dərəcədə cavab verdiyini müəyyənləşdirmək, tədqiq etmək, mövcud təcrübəni ümumiləşdirmək kitabçılıq işi, kitab mədəniyyəti, ümumiyyətlə, kitabşünaslıq elmi baxımından xüsusi aktuallıq və əhəmiyyət kəsb edir.

Problemin elmi və təcrübi əhəmiyyətini nəzərə aldıqda aydın olur ki, kitab nəşri mədəniyyəti müxtəlif aspektlərdən öyrənilməlidir. Bilik və məlumat xəzinəsi olan kitab təkcə xalqın ticarət və gəlir məqsədlərinə deyil, həm də xalqın mənəvi və elmi ehtiyaclarının ödənilməsinə istiqamətləndirilməlidir.

Bu mənada ümummilli lider H.Ə.Əliyevin fikri çox ibrətamizdir: "Kitab nəşri hər bir ölkənin, xalqın, mədəniyyətində, ümumiyyətlə, mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də, hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram" [2].

Bəli, kitab nəşri əhəmiyyətlidir. Lakin onun nəşr, təbliğ və yayılma problemləri mövcuddur. Bu mənada prof. B.V.Allahverdiyevin fikri diqqəti cəlb edir. O yazır: "Müasir dövr kitab nəşrində, təbliğində və yayılmasında özünəməxsus xüsusiyyətləri, mənəvi varlığın öz inkişaf meyillərindən doğan, mürəkkəblikləri, ciddi mövzu və tərtibat çətinlikləri vardır. Məlum məsələdir ki, bu proses bütün sahələr kimi kitab nəşrinin özü üçün də əsl yeni sınaq meydanıdır. Kitab nəşri üçün indiki şərait ilk növbədə novator təfəkkür, fəal vətəndaş mövqeyi, mövzu, kitab tipologiyası, poliqrafik icra, bədii tərtibat və s. sahələrdə ciddi yaradıcılıq axtarışları deməkdir" [1, 168].

Belə bir çətinlikləri və problemləri olan kitab nəşrimizin vacib mövzularının tədqiqata cəlb edilməsi nəşriyyat təcrübəmizin öyrənilməsi baxımından əhəmiyyətli və aktualdır. Bunun üçün respublikamızda kitab nəşrinin vəziyyətinə nəzər salmağımız birinci məsələ kimi əsas götürülə bilər.

Müasir dövrdə kitab nəşrinin çətinlikləri və ziddiyyətləri mövcuddur. Nəşriyyatların sayı artmış və fəaliyyətləri xeyli genişlənmişdir. İndi ölkəmizdə nəşriyyatlar özəl və dövlət olmaqla iki istiqamətdə formalaşmış və inkişaf etməyə başlamışdır.

"Azərnəşr", "Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı", "Azərbaycan" nəşriyyatları dövlət nəşriyyatları sırasına daxildir. Yəni, dövlətin maliyyələşdirilməsi əsasında fəaliyyət göstərirlər. Bu nəşriyyatlar kitab və digər çap məhsullarını buraxmaq sahəsində zəngin təcrübəyə malikdir. Dövlət nəşriyyatları xalqın mədəniyyətinə, elminə, təhsilinə, iqtisadiyyatına, tarixinə və s. aid qiymətli kitabları müxtəlif tiplərdə, nəşr tiplərində çap edib yayır. Müasir dövrdə dövlət nəşriyyatları tam sərbəst şəkildə fəaliyyət göstərirlər.

Müasir dövrdə ölkəmizdə 213 poliqrafiya müəssisəsi fəaliyyət göstərir: bunlardan 63-ü mətbəə, 28-i nəşriyyatdır (73 dizayn və çap mərkəzi, 5 ixtisaslaşmış çap mərkəzi, 7 ofset çap mərkəzi, 9 reklam məhsulları istehsalı, 28 vizit kartların çapını həyata keçirən müəssisələr).

Özəl nəşriyyatlara nümunə olaraq: "Mütərcim", "Nurlan", "Elm və təhsil", "Ziya", "Nurlar", "Qanun", "Əli və Nino", "Şərq-Qərb" və s. göstərə bilərik. Bu nəşriyyatlar kitab məhsulunun əsas hissəsini çapdan buraxırlar. Nəşriyyatların böyük əksəriyyəti müəlliflərin sifarişi əsasında işləyirlər. Başqa sözlə, müəlliflər öz əsərini çap etmək üçün özəl nəşriyyatlarla müqavilə bağlayır, yəni çap xərcini ödəyir və kitabını nəşr etdirir. Odur ki, nəşriyyatlar çox müxtəlif məzmunlu kitablar buraxsalar da, oxucuların tələbatı ödənilmir. Çünki kitab nəşrində oxucu tələbatı nəzərə alınmır. Bu özəl nəşriyyatların ciddi nöqsanları sırasına daxildir.

Kitabın keyfiyyəti ilə yanaşı, kəmiyyəti də bizi düşündürür və düşündürməlidir. Oxucunun tələbini dolğun ödəmək asan iş deyil, ancaq kitab bolluğu, kitaba aludəçilik haradasa kitaba biganəlik də əmələ gətirir. Biz həyatımızda bu bolluğun da acı nəticələrini görmüşük. Nə qədər kitab, qiymətli kağız məhsulu çıxdaş olub! Təəssüf ki, məktəblər də dərslikləri gərəyincə qorumur. Kitaba sevgi yaratmaqda müəllimlərimizin işi özəllikdir. Oxucular kitabın necə böyük çətinliklə yarandığından xəbərsizdirlər. İkinci tərəfdən, kitabxanalarımızda da kitablar yaxşı mühafizə olunmur [14, 194].

İndiki dövrdə əsas problemlərdən biri kitab nəşri sahəsində disproporsiyanın olmasıdır. Belə ki, elə sahələr mövcuddur ki, orada kitab buraxılışı demək olar ki, yox dərəcəsindədir. Məsələn, elmi-texniki ədəbiyyat nəşri, musiqi-not nəşri və s. bu mənada acınacaqlıdır.

Məlum bir həqiqətdir ki, elmi-texniki ədəbiyyat nəşri sahəsində böhrana qədərki dövrdə də vəziyyətimiz yaxşı deyildi. Ədəbiyyat nəşrinin çox az üç-dörd faizini təşkil edən bu sahədə problemlər daha çoxdur. Elmi ədəbiyyat xüsusi qayğı tələb edir. Bu növ ədəbiyyatın istehsal çətinlikləri olduqca çoxdur. Nadir hallarda da az tirajla buraxılan bu cür kitabların oxucu tələbatını cüzi ödəməsindən belə söhbət gedə bilməz. Elmi-tədqiqat idarə və təşkilatlarının iqtisadi imkansızlığı da bu növ ədəbiyyatın himayə edilməsinə imkan vermir.

Elmi ədəbiyyatın dövlət tərəfindən himayə olunmaması indi nəşriyyatları çıxılmaz vəziyyətə salıb. Bu tip ədəbiyyatın azalması, elmi nəşrlərin dayandırılması elmi inkişafın, nəticədə isə xalqın milli təfəkkürünün geriləməsinə səbəb olacaq [14, 229].

Nəşriyyat işində bazar münasibətlərinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün vəsait qoyuluşunun istiqamətlərində ciddi dəyişiklik edilməsi, yeni texnika və texnologiyalardan kitab istehsalında istifadə olunmasına xüsusi diqqət yetirilməlidir.

Cəmiyyətdə gedən demokratikləşdirmə prosesi kitabın nəşrinə, onun inkişafına da fəal təsir göstərir, durğunluq, prinsipsizlik hallarının aradan qaldırılmasını ciddi şəkildə tələb edir. Bu prosesdə nəşriyyatların müstəqilliyini, naşirlərin, müəlliflərin sərbəstiliyini müdafiə etmək – kitab nəşrində demokratiyanı dərinləşdirməyin mühüm istiqamətidir.

Azərbaycanda sahələr üzrə kitab nəşrində naşirləri düşünməyə vadar edən problemlər çoxdur. Hələ, 1980-ci illərdə Azərbaycanın görkəmli yazıçısı, akademik M.İbrahimov deyirdi: "Kitab nəşrində bizim vəzifəmiz – dünya standartlarına yaxınlaşmaqdır. Burada da müəyyən irəliləyişlərimiz var: həm kitabların məzmununda, həm də poliqrafik icrasında. Lakin həll olunmamış məsələlər, xüsusilə keyfiyyətlə bağlı qayğılar az deyil". O, sözündə davam edərək deyirdi: "Kitab nəşri xalqın mənəvi estetik tərbiyəsi, elmi-texniki və mədəni tərəqqisi üçün böyük əhəmiyyəti olan məsələdir. Kitab hər cəhətdən qənaətləndirici və gözəl olmalıdır. Bunsuz istənilən mənəvi və maddi səmərəyə nail olmaq çətindir. Keyfiyyəti qaldırmaq üçün kitabların buraxılışı ilə bağlı bütün müəssisələrin – Yazıçılar İttifaqının (indi Yazıçılar Birliyi), elmi müəssisələrin, nəşriyyatların əlbir işləməsi lazımdır. Kitabın çapa hazırlanması və çapı zərif, diqqət və zəhmət tələb edən işdir. Bu böyük işdə bəzən orfoqrafik, qrammatik, üslubi və hətta məna səhvlərinə yol verilir" [13, 4].

Kitab nəşrinin inkişafı xüsusiyyətlərindən bəhs edərkən qeyd etməliyik ki, sahələr üzrə kitab nəşri oxucu tələbatından geri qalır. Elmin müxtəlif sahələri üzrə kitab nəşri 1920-ci illərin əvvəllərindən yerində sayır.

Bəzi sahələrdə kitab nəşri demək olar ki, dayanmışdır. Respublikada istehsal olunan kitabların ümumi kütləsinin yarıdan çoxu dərslik, qalan əksəriyyətini isə ictimai-siyasi, bədii ədəbiyyat təşkil edir. Kütləvi-siyasi, bədii və metodiki ədəbiyyatı çıxaq, ayrı-ayrı sahələrin çox zəif təmsil olunduğunu deyə bilərik. Apardığımız tədqiqat göstərir ki, ixtisas, elmi sahə üzrə kitab nəşrində artım müşahidə olunmur.

Respublikamızda milli dildə kütləvi, tibb, hüquq, kənd təsərrüfatı ədəbiyyatı da azlıq təşkil edir. Memarlıq, tikinti, nəqliyyat və mədəniyyət sahələri üzrə ədəbiyyat nəşrinin səviyyəsi də aşağıdır. Ali və orta ixtisas məktəbləri üçün dərslik nəşri tələbatı ödəmir. Orta ixtisas təhsili sistemi üçün ildə 5-6 texniki peşə təhsili sistemi üçün isə cəmi 3-4 adda kitab nəşr edilir [15].

Ümumi həcmdə milli dildə orijinal ədəbiyyat, xüsusilə elmi kitablar da azlıq təşkil edir. Müxtəlif elm sahələrinə aid milli dildə kitabların az, həm də gec-gec nəşri bir tərəfdən elmin inkişafına mane olursa, digər tərəfdən mənfi təsir göstərir.

Uşaq ədəbiyyatının gəlişməsi gəncliyimizə qayğıdır. O, bir an belə, diqqətdən yayınmamalıdır. Ancaq təəssüf ki, buraxılan kitablar arasında uşaq kitablarının az yer tutması bizim bu sahədə uğurla işləmədiyimizi göstərir [14, 211].

Respublikamızda fəaliyyət göstərən "Beşik", "Tutu", "Üç alma", "Qanun", "Əli və Nino" (çox vaxt "Qanun", və "Əli və Nino" – bu nəşriyyatların müştərək layihələri) nəşriyyatları uşaqlar və yeniyetmələr üçün xeyli bədii ədəbiyyat, soraq məlumat kitabları və s. buraxırlar.

Uşaqların kitaba meylini artırmaq, onlarda elmə maraq və həvəs oyatmaq üçün müxtəlif mövzularda şəkilli kitabların buraxılması xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan, qarşıda duran başlıca məqsəd bədii və uşaq ədəbiyyatı nümunələrinin ideya-məzmun və poliqrafik keyfiyyətini

daha da yüksəltməkdir. Azərbaycan türkcəsində 50 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası" nəşri, dünya xalqlarının nağıllarından ibarət kitab dəsti, klassik və çağdaş uşaq ədəbiyyatı örnəklərindən oluşan şəkilli kitabların nəşri sevindiricidir. Bu cür kitabların ad sayı və tirajı da son illər artmışdır [14, 212].

Soraq-məlumat kitablarının nəşri sahəsində də müəyyən nailiyyətlər əldə edilmişdir. Məsələn, 1997-ci ildən çap edilən "Ayna uşaq ensiklopediyası" nəşr edilməyə başladı. Bu ensiklopedik nəşr uşaqların sorğu və tələbatlarını ödəmək üçün müxtəlif mövzuları əhatə edir. Bu ensiklopediyalar məzmun və mövzu etibarı ilə çox zəngindir, uşaqlar və yeniyetmələr öz sorğu və tələbatlarının ödənilməsində bu nəşrlərdən geniş istifadə edirlər.

Uşaqların sorğu və tələbatlarını ödəmək, bilik və məlumatlarını zənginləşdirmək üçün "Ayna Mətbu Evi" nəşriyyatı 1997-2003-cü illərdə Ekson Mobil Şirkətinin maliyyə dəstəyi ilə 18 kitabdan ibarət "Ayna uşaq ensiklopediyası" hazırlayıb nəşr etmişdir.

2005-ci ildə "Təfəkkür" Nəşriyyat Poliqrafiya Mərkəzi tərəfindən buraxılan "Mən dünyanı öyrənirəm (Uşaq ensiklopedik toplusu)", 2008-ci ildə "Şərq-Qərb" nəşriyyatının buraxdığı "Uşaqlar üçün ensiklopediya – Geologiya", "Uşaqlar üçün ensiklopediya - İnformatika", "Uşaqlar üçün ensiklopediya – Kimya", "Azərbaycan incəsənəti" – təsviri sənət, dekorativ – tətbiqi sənət, memarlıq (Uşaqlar üçün ensiklopedik məlumat kitabı) üç cildliyinin I cildi 2010-cu ildə 104 səhifə həcmində gözəl tərtibatla "Letterpress" nəşriyyat evində "Vətənimizi öyrənək" seriyasında çap olunmuşdur.

"Şərq-Qərb" nəşriyatında 2012-ci ildə 396 səhifə həcmində işıq üzü görən mühüm nəşrlərdən biri də "Uşaqlar üçün ensiklopediya. Coğrafiya" adlanır.

"Qanun" və "Əli və Nino" nəşriyyatlarının birgə layihəsi olan "Ağıllı oğlan və Qızların ensiklopediyası" 2013-cü ildə işıq üzü görən əhəmiyyətli nəşrlərdən biri kimi diqqəti cəlb edir. Bu seriyada "Nəqliyyat və maşınlar", "Qədim Roma", "İnsan bədəni", "Planetimizin qəribə quşları", "Həşəratlar" adlı ensiklopediyalar çap edilərək kiçik yaşlı oxuculara töhvə edilmişdir. Apardığımız araşdırmalar nəşticəsində məlum olur ki, müstəqillik illərində uşaqlar üçün soraq-məlumat ədəbiyyatının nəşri müəyyən qədər çoxluq təşkil edir. Lakin çox təəssüf doğuran bir haldır ki, bu nəşrlərin əksəriyyəti tərcümə nəşrləridir.

Ancaq qazanılmış təcrübəyə, zəngin elmi biliklər toplanmasına baxmayaraq, respublikada ensiklopedik və sorğu ədəbiyyatının nəşri üçün tələblərini də ödəmədiyini qeyd etməyimiz zəruridir. Ayrı-ayrı sahələr üzrə soraq-məlumat kitabları çatışmır, universal ensiklopediyanın hazırlanması və nəşri arasında çox uzun bir vaxt keçir və bu müddət içərisində toplanmış, işlənmiş informasiyaların çoxu əsgiyir. Özəllikcə poliqrafiya işinin geriliyi ensiklopedik kitabların və soraq-məlumat nəşrlərinin tez, operativ nəşrinə imkan vermir.

Göründüyü kimi, Azərbaycan Ensiklopediyası Nəşriyyat Poliqrafiya Birliyi soraq-məlumat nəşri sahəsində müəyyən nailiyyətlər əldə etsə də, oxucu tələbatını ödəmir. Digər böyük nəşriyyatımız olan "Azərnəşr"in fəaliyyəti də bu sahədə olduqca zəifləmişdir.

1970-1980-ci illərdə hər il 180-200 adda müxtəlif elm və bilik sahələrinə dair kitab və kitabça nəşr edən Azərbaycan Dövlət Nəşriyyatı 1990-cı illərdə hər il 40-50 adda kitab çapdan buraxır. Məsələn, 1992-ci ildə nəşriyyat N.Əsgərovla "Mütəfəkkirlər şəxsiyyət haqqında" (25 min nüsxə), T.Gərayzadə "İraq Respublikası" (5 min nüsxə), A.Şükürov "Təbiət və cəmiyyət" (3 min nüsxə), 1993-cü ildə M.Əliyev "Qanlı günlərimiz" (7 min nüsxə), H.Cəfərov "Milli ictimai fikir tarximiz" (3 min nüsxə), M.İsmayılov "Azərbaycan tarixi" (6 min nüsxə), M.Rəsulzadə "Əsərləri" (c.1. – 10 min nüsxə), Z.Bünyadov "Qanlı terror" (10,2 min nüsxə), F.Rəşidənin "Oğuznamə" (25 min nüsxə), M.Məmmədzadə "Ermənilər və İran" (4 min nüsxə), Q.Qeybullayev "Qədim türklər və Ermənistan" (10,5 min nüsxə), S.Əfəndiyev "Azərbaycan xalq təbabətindən" (45 min nüsxə), 1995-ci ildə M.Cabbarov "İordaniya" (7 min nüsxə), Ə.Nicat "Dünya sərkərdələri" (2 min nüsxə), 1996-cı ildə N.Quliyeva "Ölməzliyə gedən yol" (1000 nüsxə), 1997-ci ildə Ə.Əhsarov "Ahuşka türkləri" (1000 nüsxə), Ə.Rəcəbov "Uyğurlar" (100 nüsxə) və s.

Bu kitabların adları, yəni mövzuları indiki tələbkar oxucunun tələbatını təmin edə bilməz. Digər tərəfdən bu adların qeyd etdiyimiz kitabların hər birinin tirajı 2-3, bəzən 5 min olması da təəccüb doğurur.

Lakin bu gün tiraj siyasəti də yarıtmaz haldadır. Araşdırmalar nəticəsində müəyyən olur ki, çap məhullarında standart tiraj 300 (75, 100, 150-yə də rast gəlmək mümkündür), 500, nadir hallarda 1000, 1500 təşkil eidr. 10 milyon əhalisi olan Azərbaycan xalqının tələbatını bu cüzi tirajla ödəmək qeyri-mümkündür.

Göründüyü kimi, Azərbaycan kitabının istər mövzusu və istərsə də tirajında çox uyğunsuzluq vardır. Başqa sözlə təklif tələbata cavab vermir. 1987-1997-ci ildə Bakı Universiteti nəşriyyatı cəmi 220 adda monoqrafiya, dərslik və dərs vəsaiti çapdan buraxmışdır [17, 113].

Göründüyü kimi, Bakı Universiteti nəşriyyatı hər il 22 adda kitab nəşr etmişdir. Əlbəttə, böyük professor müəllim və tələbə kollektivinin kitaba olan tələbatını qeyd etdiyimiz nəşrlərlə ödəmək mümkün deyildir. Deməli, respublikamızın bütün nəşriyyatlarında disproporsiya mövcuddur.

Görkəmli Azərbaycan yazıçısı Çingiz Abdullayev çox haqlı olaraq qeyd edir ki, Yazıçılar Birliyi dəfələrlə belə bir təkliflə çıxış etmişdir ki, hökumət tərəfindən hər il ədəbiyyata xüsusi qayğı göstərilməli və dövlət hesabına yeni, ciddi kitablar nəşr olunmalıdır. Düzdür, bizdə cavan və yaşlı yazarlara fərdi təqaüdlər verilir, müəyyən kitablar nəşr olunur, ədəbi orqanlar büdcədən maliyyələşdirilir. Lakin kitab nəşri ilə bağlı xüsusi dövlət proqramı olmasa, milli ədəbiyyatımız arzuolunan səviyyədə inkişaf edə bilməz [8].

Fikrimizcə, nəşriyyat, mətbəə və poliqrafiya müəssisələrinin özəlləşdirildiyi indiki dövrdə həqiqətən kitab nəşrinə, təbliğinə və yayılmasına dövlət qayğısı artırılmalıdır. Əks halda kitab mədəniyyətimizə ağır zərbələr deyə bilər.

İndiki dövr, şərait, Qarabağ problemi tələb edir ki, nəinki Azərbaycan oxucusunun tələbatını ödəməliyik, eyni zamanda respublikamız barədə, onun keçmişi, bu günü, mədəniyyəti haqqında kitablar yazıb, dünya dillərinə çevirməli, xarici ölkələrdə nəşr edib yaymalıyıq.

Müəyyən olur ki, 1990-cı illərin əvvəllərindən nəşriyyatlara az-çox sərbəstlik verilmiş, nəşr olunacaq ədəbiyyatın tematik planının müxtəlif səviyyələrdə müzakirəsi kimi zərərli bürokratik asılılıq aradan qaldırılmışdır. Müəllif hesabına kitab nəşrinin nizama salınmasında prosesin demokratikləşdirilməsi üçün xeyli imkan açmışdır. Amma bu sahədə ölkənin, ümumiyyətlə, xarici ölkələrin təcrübəsini öyrənməyin və respublikamızın şəraitinə, marağına uyğun normativləri hazırlamağın xüsusi əhəmiyyəti ola bilər.

Nəşriyyat prosesində inkişaf tempinin aşağı düşməsi bir sıra amillərlə bağlıdır. Onu təkcə yeni texnika və texnologiyalarla bağlamaq olmaz. Onu eyni zamanda sahənin mütəxəsisslərinin işgüzarlıq və təşəbbüskarlığının azlığı ilə də bağlamaq olmaz. Bütövlükdə, nəşriyyat-poliqrafiya sisteminin həm iş üsulu, həm də avadanlıq və texnikası mənəvi və fiziki cəhətdən köhnəlmişdir. Lakin bəzi nəşriyyatlar da vardır ki, müasir tələblərə cavab verən çap avadanlıqları ilə təchiz edilmişdir. Lakin bu cür nəşriyyatlarda kitab çapı, ümumiyyətlə, hər hansı bir çap sifarişlərinin qəbulu olduqca bahadır. Buna da müəlliflərin gücü çatmır. Bu səbəbdən müəlliflər daha ucuz nəşriyyatlar axtarmalı olurlar. Çap işlərini ucuz həyata keçirən nəşriyyatlarda isə redaksiyalar yoxdur, demək olar ki, mətbəə üsulu ilə işləyirlər. Bu cür nəşriyyatlara üz tutan müəlliflərin əsərləri redaktor nəzarətindən uzaq qalır, bunun üçün də yararsız, əhəmiyyətsiz, həmçinin səhvlərlə zəngin olan (korrektə, bədii redaktə, əsərin çapının məsləhətli olub-olmaması məsələləri) kitablar meydana gəlir.

Yeni texnologiyanın tətbiqi həm güclü yatırım, həm də ixtisaslı kadr istəyir. Çox təəssüf ki, indidən gələcəkli texnika üçün kadrlar hazırlanması barədə düşünülmür. Bakı Dövlət Universitetində yaradılmış "Kitabşünaslıq" sahəsi üzrə redaktor kadrları hazırlanırdı (1997-ci ildən). Lakin bu sahə üzrə tələbə qəbulu bu ildən dayandırıldı (2019-cu ildən). Bu da ürəkaçan hal deyil. Əksinə bu sahə üzrə peşəkar redaktorların yetişdirilməsi, bu sahənin inkişaf etdirilməsi məsələsi dövlətin diqqət mərkəzində olmalıdır.

Gizli deyil ki, nəşriyyat, redaktor və poliqrafiyaçılarımızın perspektiv texnologiya barədə anlayışları dayazdır. Durmadan vəziyyətdən çıxmaq üçün ixtisaslı mütəxəssislərin hazırlanmasına səy göstərmək lazımdır. Kitab müəssisələrinə, rəssamlarına, texniki redaktorlarına, indinin özündə çox böyük ehtiyac vardır. Bu kitabçılıq işi mütəxəssislərinin hazırlanmasına indidən başlamasaq, sabah, isə çox gec olacaq. Əslində isə çox gecikmişik [14, 223].

Ümumiyyətlə, bizim respublikada kitab nəşrinin dövlət proqramı və konsepsiyası hazırlanmalıdır. "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının qanununda (30 may 2000-ci il) deyilir: "Nəşriyyat işi sahəsində dövlətin əsas vəzifələri aşağıdakılardır:

- Nəşriyyat işinin inkişafına dair dövlət proqramının hazırlanması və həyata keçirilməsi;
- Nəşriyyat işi sahəsində inhisarçılığın qarşısının alınması;
- Əhalini, təhsil müəssisələrini və kitabxanaları latın əlifbası ilə nəşr olunmuş kitablarla təmin etmək məqsədilə, xüsusi dövlət proqramının hazırlanması və həyata keçirilməsi;
- Azərbaycan xalqının klassik irsi və milli və mənəvi sərvətləri sayılan əsərlərin dövlət sifarişi əsasında nəşrinin həyata keçirilməsi;
- Bu məqsədlə güzəştli kreditlər və dövlət tərəfindən qrantların ayrılması;..." [5].

Hər bir konkret xalqın, o cümlədən Azərbaycan xalqının tarixinə, kitab nəşri və inkişafına, onun öyrənilməsinə məhz xalqın məxsus olduğu sosial tarixi şəraitdən, kitab nəşrinin, təbliği və yayılmasının formalaşmasında və inkişafında bu şəraitin rolundan çıxış etmək lazımdır.

Müasir dövr kitab nəşrinin təşkilində bir çox problemlərlə nəşriyyat işçiləri, redaktorlar, bədii tərtibatçılar, müəlliflər və başqaları tez-tez qarşılaşmalı olurlar. Bazar iqtisadiyyatı şəraitində kitab nəşrinin öz inkişaf meyillərindən doğan mürəkkəblikləri, ciddi mövzu, məzmun və tərtibat çətinlikləri vardır. Məlum məsələdir ki, bu proses bütün sahələr kimi kitab nəşrinin özü üçün də əsl yeni sınaq meydanıdır. Kitab nəşri üçün indiki şərait ilk növbədə novator təfəkkür, fəal vətəndaş mövqeyi, mövzu, kitab tipologiyası, poliqrafik icra, bədii tərtibat və s. sahələrdə ciddi yaradıcılıq axtarışları deməkdir.

Ölkə iqtisadiyyatının qətiyyətlə irəliləməsi, xalqın mədəni, mənəvi yüksəlişi, kitab nəşrinin səmərəli təşkili və inkişafından çox aslıdır. Kitabın strukturunu təkmilləşdirmək, tipologiyasının xüsusiyyətlərini meydana çıxarmaq, kitab nəşrinin mövzu istiqamətlərini müəyyən etmək, nəşriyyatların kadr tərkibini yaxşılaşdırmaq qarşıda duran və həllini gözləyən problemlərdir [1, 168].

Kitaba məhəbbət kitaba qayğı ilə nəticələnməlidir, onu mühafizə etmək üçün onun mətnini vermək və təbliğ etmək gərəkdir. Ancaq demək lazımdır ki, bizdə televiziya, radio və mətbuatda kitab təbliği olduqca zəifdir. Ayrı-ayrı sahələr üzrə buraxılan ədəbiyyat oxucusuna vaxtında çatmır. Oxucu istədiyi kitabın nəşr olunduğundan vaxtında xəbər tutmur. Qəzetlərimiz, digər informasiya vasitələrimiz bu sahədəki ləngliyi aradan qaldırmalı, laqeyidlik "buz"unu sındırmalı, gündəlik kitab təbliğinə nail olmalıdır [14, 194].

"Nəşriyyat işi haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi (30 may 2000-ci il) və tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı (15 avqust 2000-ci il) kitabçılıq işi sahəsində olan bir çox problemlərin həllinə kömək edəcək. Məsələn, "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda deyilir: "Nəşriyyat işi sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

- Nəşriyyat işi sahəsində sərbəstliyin təmin edilməsi;
- Nəşriyyatın işinin maddi-texniki bazasının təşkilati, hüquqi və elmi əsaslarının möhkəmləndirilməsinə, milli kitab nəşrinin inkişafına yardım edilməsi" [18, 522-526].

Göründüyü kimi, müasir mərhələdə kitab nəşrinin olduqca çox və müxtəlif problemləri vardır. Bu problemlər həll edilməsə kitab nəşri, əhalinin kitaba olan tələbatı lazımi səviyyədə ödənilə bilməz. Odur ki, kitab nəşrinin kompleks şəkildə həllinə kömək edən konsepsiyanın hazırlanması da əsas məsələlərdən biridir.

Nəşriyyatın prinsipi mövqedə dayanaraq, çapdan buraxdığı məhsulların müasir səviyyəsinin təmin olunmasına çalışmalı, ətrafına elə müəlliflər cəlb etməli, onlarla işi elə qurmalıdır ki, buraxılan kitablar dövrün tələblərinə uyğun olsun. Nəşriyyatlarda əsərlərin məzmununa, fikrin konkretliyinə, müəllif məqsədinin aydınlığına nəzarəti artırmalı, həcm böyüklüyünə deyil, fikir, məna böyüklüyünə xüsusi diqqət yetirilməlidir. Bu baxımdan nəşriyyat işçilərinin qarşısında çox mühüm vəzifələr durur və həmin vəzifələrin əhatəli şəkildə yerinə yetirilməsi üçün mövcud imkanlardan daha dolğun, daha səmərəli istifadə etmək lazımdır.

Açığını demək lazımdır ki, yaşadığımız indiki mərhələdə naşirlərimiz, poliqrafiyaçılarımız, kitab təbliği və yayılması ilə məşğul olan insanlar, daha dəqiq desək mütəxəssislər cəmiyyətin bütün

fəaliyyət sahələrinin kitaba olan tələblərini ödəmək iqtidarında deyildir. Lakin tədricən özəl nəşriyyatların formalaşması kitabın ad və tiraj etibarilə inkişafına zəif də olsa müsbət təsir etməkdədir.

Ədəbiyyat:


1. Allahverdiyev B, Məmmədzadə R. Müasir mərhələdə kitab ticarətinin təşkili. Bakı: Gənclik, 1996, s.167-195.
2. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin miniatür kitabın təqdimat sərgisində çıxışı // "Azərbaycan" qəz., 1995, 6 iyun
3. Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin tabeliyində olan bir sıra müəssisələrin özəlləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı: 29 mart, 2001-ci il. // "Respublika" qəz., 2001, 30 mart.
4. Azərbaycan Respublikasında "Dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası prezidentinin fərmanı: 2 yanvar, 2003-cü il // "Azərbaycan" qəz., 2003-cü il, 4 yanvar.
5. "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı: 15 avqust 2000-ci il. Bakı, 2003, 13 s.
6. Azərbaycanda nəşriyyat işi. Bakı: Yeni Nəsil, 2000, s.106-150.
7. Azərbaycan nəşrləri Kataloq. Bakı: El – Aliance şirkəti, 2003, 84 s.
8. İki arzum var: zəlzələ olmasın, Qarabağı azad edək: Çingiz Abdullayevlə müsahibə. // "Ədəbiyyat" qəz., 2001-ci il 13 aprel.
9. Kitab çapı dövlət əhəmiyyətli bir işdir: "Kitabşünaslıq və nəşriyyat işi" kafedrasının müdiri, tarix elmləri doktoru, professor Bayram Allahverdiyevlə müsahibə. // "Müstəqil qəzet", 1999, 4-10 fevral.
10. Kitaba maraq niyə azalıb? BDU-nun Kitabşünaslıq və nəşriyyat işi" kafedrasının müdiri, tarix elmləri doktoru, professor Bayram Allahverdiyevlə müsahibə. // "Palitra" qəz., 2001, 13 fevral.
11. Kataloq: Yayım Assosiasiyası. Bakı: 2001, -№6. -31 s.
12. Məmmədzadə R. Azərbaycan kitabının bugünkü faciəsi. // "Vətəndaş" qəz., 2002-ci il, 28 aprel., 4 may.
13. Poliqafiya və kitab mədəniyyəti // "Ədəbiyyat və incəsənət" qəz., 1983-cü il, 20 may.
14. Vəliyev İ.Ö. İnsan: həyatda və sənətdə. Bakı: Günəş, 1998, 248 s.
15. Vəliyev İ. Kitab çoxluğu, kitab yoxluğu. // "Kommunist" qəz., 1989, 5 iyul.
16. Yeni kitablar: Kataloq /tərt.ed.Həqiqət Sadıqova. Bakı: "Azərbaycan ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, 2000, 23 s.
17. Tahirqızı Ş. M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti nəşriyyatının nəşrləri: biblioqrafik göstərici (1987-1997-ci illər). Bakı, 1999, 113 s.
18. Nəşriyyat işi haqqında Azərbaycan Respublikasının qanunu (30 may 2000-ci il) // Azərbaycan Respublikasının Qanunlar külliyyatı. III kitab. Bakı: Qanun, 2001, s.522-526.


**Leyla Abasova**

**Book publishing over the years of independence:
Supply and demand problems**

**Summary**

The article mentions the publishing system in Azerbaijan over the years of independence and also provides a comparative analysis of the situation in the publishing system of Azerbaijan in the late 1980s. In particular, the article analyzed the question of adapting the problem of supply and demand, the problem was commented, and some results were also obtained.

According to the author, the problem of supply and demand is the most difficult, but their adaptation is a matter of necessity. For this, the author proposes to take into account all the features of the book business, and also suggests that publishers, publishing houses, and people playing a role in book distribution should work together.

The author notes that in the modern era we have gained certain achievements in the field of book publishing: name and tirage of the book, artistic and printing execution, structure and typology of the book, and etc.

Some of these components have high achievements in the field of book work, however, at the same time other components are not successful.

***Keywords:*** book, publication, supply, demand, reader, editor, work, publisher, years of independence, private publishing system, state publishing houses

**Лейла Абасова**

**Книгоиздание за годы независимости:**
**Проблемы спроса и предложения**

**Резюме**

В статье упоминается издательская система в Азербайджане за годы независимостиитакже приведен сравнительный анализ ситуации в издательской системе Азербайджана в конце 1980-х годов.В частности, в статье был проанализирован вопрос адаптации проблемы спроса и предложения,проблема была прокомментирована,также получены некоторые результаты.

По оценке автора, проблема спроса и предложения является наиболее сложной, но их адаптация является вопросом необходимости.Для этого автор предлагает принять во внимание все особенности книжного бизнеса,атакже предлагает что издатели, издательства, и люди играющие роль в распространение книг должны работать согласованно.

Автор отмечает, что в настоящее время мы добились определенных успехов в области книгоиздания: название и тираж книги, художественно-полиграфическое исполнение, структура и типология книги и т. д.

Некоторые из этих компонентов имеют высокие достижения в области книжной работы, в то время когда некоторые компоненты не достигли успеха.

***Ключевые слова:*** книга, публикация, предложение, спрос, читатель, редактор, работа, издатель, годы независимости, частная издательская система, государственные издательства

Redaksiyaya daxil olma tarixi: 05.04.2019
Çapa qəbul olunma tarixi: 06.04.2019
**Filologiya elmləri doktoru, professor Nadir Məmmədli** tərəfindən çapa tövsiyə olunmuşdur.